# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ İLƏ RUMINİYANIN MİLLİ SANİTAR BAYTARLIQ VƏ QİDA TƏHLÜKƏSİZLİYİ QURUMU ARASINDA QİDA TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

# ANLAŞMA MEMORANDUMU

Bundan sonra "İştirakçılar" adlandırılacaq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Rumıniya Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumu,

qida təhlükəsizliyi sahəsində birgə səy göstərilməsi üçün sıx əlaqələrin qurulması niyyətində olduqlarını ifadə edərək;

idxal və ixrac olunan qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə İştirakçılar arasında qarşılıqlı cavabdehlik, təcrübə mübadiləsi və müştərək maraq sahələrini müəyyən etmək və əməkdaşlığı təşviq etmək üçün

aşağıdakılar barədə razılığa gəlirlər:

## Maddə 1
## Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədi İştirakçılar arasında qida təhlükəsizliyi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsidir.

## Maddə 2
## Əməkdaşlıq sahələri

Qida təhlükəsizliyi sahəsində səmərəli əməkdaşlığı təmin etmək üçün İştirakçılar, öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq, aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:

a) İştirakçıların dövlətlərinin milli qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq, qida məhsullarının qarşılıqlı ticarətinin dəstəklənməsi;

b) qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinin təmin edilməsi;

c) qida təhlükəsizliyi sahəsində təcrübə mübadiləsi;

d) birgə elmi-tədqiqat işlərinin nəticələri və hesabatları üzrə bilik mübadiləsi;

e) sanitar baytarlıq nəzarətində olan mallara, həmçinin qida məhsullarına verilən sertifikatların, eləcə də onlarda baş verən dəyişikliklər barədə məlumatların qarşılıqlı mübadiləsi;

f) İştirakçıların dövlətlərinin milli qanunvericiliyinə əsasən, sanitar baytarlıq nəzarətinə aid olan malların idxalı və ixracı ilə bağlı qadağalar və məhdudiyyətlər barədə məlumat mübadiləsi.

## Maddə 3
## Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlər

Qida təhlükəsizliyini təmin etmək məqsədilə, İştirakçılar risk qiymətləndirilməsi əsasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektləri (bundan sonra – subyektlər) yoxlayırlar.

## Maddə 4
## Qida məhsullarına nəzarət və onların risk səviyyəsi

İştirakçılar idxal və ixrac zamanı qida məhsullarının təhlükəsizliyini və yararlılığını təmin etmək üçün məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq ekspertizasını həyata keçirirlər.

İştirakçılar idxal olunan qida məhsullarının yoxlanılmasının Azərbaycan Respublikasının milli qanunvericiliyi, Avropa İttifaqının qanunvericiliyi və Rumıniyanın milli qanunvericiliyinə uyğun olaraq, risklərin qiymətləndirilməsinə əsaslanan qida nəzarəti sisteminə uyğun aparılmasına razılıq verirlər.

İdxal olunan müəyyən qida məhsulları üzrə müqabil İştirakçının dövlətinin ərazisində qüvvədə olan milli qanunvericilik aktları xüsusi tələblər baxımından əhatəli olmadığı hallarda, İştirakçılar sertifikatlaşdırma (və digər zəmanətlər) üçün əsas olaraq FAO və ÜST tərəfindən yaradılan Kodeks Alimentarius Komissiyası (Codex), Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (OIE) və Bitki mühafizəsi haqqında Beynəlxalq Konvensiya (IPPC) standartları, təlimatları və tövsiyələrinə istinad edə bilərlər və ticarətlə bağlı məsələlərdə Avropa Komissiyasının səlahiyyətlərini nəzərə alırlar.

İştirakçılar ixrac edilən qida məhsullarına münasibətdə dövlətlərinin milli qanunvericilikləri barədə məlumatları bir-birilə bölüşürlər.

İştirakçılar idxal tələblərinə və şərtlərinə hər hansı dəyişikliklər etdikdə, müqabil İştirakçıya bu barədə məlumat verirlər.

İştirakçılar bütün yoxlama prosedurlarının sənədləşdirilməsini və şəffaflığını, eləcə də tələb olunduqda, bütün prosedurlara dair məlumatların təqdim edilməsini təmin edirlər.

## Maddə 5
## İxrac sertifikatları

İxrac edən İştirakçı müvafiq sertifikatların, idxal edən İştirakçının milli qanunvericiliyi və beynəlxalq standartlar nəzərə alınmaqla, hazırlanmasını təmin edir.

## Maddə 6
## Texniki icra mexanizmi

İştirakçılar subyektlərin fəaliyyətinin keyfiyyət və təhlükəsizliyə dair norma və qaydaların tələblərinə uyğunlaşdırılmasına dövlət nəzarətini həyata keçirir, habelə onların qida təhlükəsizliyi qeydiyyatına alınmasını və müvafiq sənədlərin verilməsini təmin edirlər.

Qida təhlükəsizliyi qeydiyyatından keçməyən subyektlər tərəfindən qida məhsullarının ixrac edilməsinə icazə verilmir.

İdxal edən İştirakçı qida məhsulları ixrac edən müəssisələrin tələblərə cavab verdiyinə əmin olmaq üçün ixrac edən İştirakçıdan bütün müvafiq sənədləri tələb etmək hüququna malikdir.

İştirakçılar idxal edilən qida məhsullarının istehsal prosesini yerində nəzərdən keçirmək və keyfiyyətə nəzarət sistemlərini görmək üçün yüksək riskli qida obyektlərinə (patogen mikroorqanizmlərin inkişafı üçün əlverişli şərait hesab edilə bilən qida məhsullarının ilkin istehsalı, istehsalı və emalı ilə məşğul olan obyektlər) səfərlər etmək hüququna malikdir.

İxrac edən İştirakçı belə səfərləri əlaqələndirir.

İdxal edən İştirakçı idxal olunmuş bütün yüklərin Azərbaycan Respublikasının milli

qanunvericiliyi, Avropa İttifaqının qanunvericiliyi və Rumıniyanın milli qanunvericiliyinə uyğun olaraq yoxlanılması hüququnu özündə saxlayır (sənədlərin yoxlanılması, fiziki yoxlama, laboratoriya müayinəsi).

İştirakçılar, idxal zamanı dövlətlərinin Azərbaycan Respublikasının milli qanunvericiliyi, Avropa İttifaqının qanunvericiliyi və Rumıniyanın milli qanunvericiliyinin tələblərinə riayət edilmədikdə, yüklərin qəbulundan imtina etmək hüququnu özündə saxlayır.

**Maddə 7**
**Xərclər**

Bu Anlaşma Memorandumunun 6-cı maddəsində nəzərdə tutulmuş səfərlərlə bağlı xərclərin ödənilməsi İştirakçıların qarşılıqlı razılığı əsasında həyata keçirilir.

**Maddə 8**
**İşçi görüşlər**

İştirakçılar bu Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsi ilə əlaqədar olan praktiki məsələlərin həlli üçün zərurət yarandıqda, iki ildə bir dəfədən az olmamaqla fiziki və ya virtual formatda görüşlər təşkil edə bilərlər.

Görüşlərin yeri, tarixi və gündəliyi İştirakçılar tərəfindən müəyyən edilir.

Görüşlərin təşkilati xərcləri qəbul edən İştirakçı tərəfindən ödənilir. Nəqliyyat və gündəlik xərclərini hər bir İştirakçı özü ödəyir.

**Maddə 9**
**Fikir ayrılıqlarının həlli**

Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı İştirakçılar arasında danışıqlar və məsləhətləşmələr vasitəsilə dostcasına həll edilir.

**Maddə 10**
**Anlaşma Memorandumunun əhatə dairəsi**

Bu Anlaşma Memorandumu Rumıniyanın Avropa İttifaqının üzv dövləti kimi sahib olduğu hüquq və öhdəliklərə və ya İştirakçı dövlətlərinin tərəf olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəlilklərinə təsir etmir.

**Maddə 11**
**Dəyişikliklər**

İştirakçıların qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna onun ayrılmaz tərkib hissəsi olan və bu Anlaşma Memorandumunun 13-cü maddəsinə müvafiq olaraq qüvvəyə minən ayrıca protokollar formasında istənilən dəyişikliklər edilə bilər.

**Maddə 12**
**Anlaşma Memorandumunun hüquqi qüvvəsi**

Bu Anlaşma Memorandumu beynəlxalq hüquqla tənzimlənən hər hansı hüquq və öhdəliklər yaratmır.

**Maddə 13**
**Qüvvəyəminmə, müddət və qüvvədən düşmə**

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və İştirakçılardan hər hansı biri bu Anlaşma Memorandumunu ləğv etməklə bağlı yazılı bildiriş vermədikdə, 3 (üç) il müddətində qüvvədə qalacaqdır. Belə bildirişin alındığı tarixdən 3 (üç) ay sonra bu Anlaşma Memorandumu qüvvəsini dayandıracaqdır.

İştirakçılar başqa qərar qəbul etmədikdə, bu Anlaşma Memorandumunun qüvvədən düşməsi onun müddəalarına əsasən başlanılmış və qüvvədən düşənədək başa çatmamış hər hansı fəaliyyətlərə təsir etməyəcəkdir.

Bu Anlaşma Memorandumu "1" aprel 2024-cü il tarixində Bakı şəhərində, hər biri Azərbaycan, rumın və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**
**ADINDAN**

**RUMINİYANIN**
**MİLLİ SANITAR BAYTARLIQ VƏ**
**QİDA TƏHLÜKƏSİZLİYİ QURUMU**
**ADINDAN**